GÜNEY AZƏRBAYCAN QURTULUŞ PARTİYASI
SOUTH AZERBAIJAN FREEDOM PARTY


[www.qurtulush.se](http://www.qurtulush.se)

[qurtulush.partiyasi@gmail.com](mailto:qurtulush.partiyasi@gmail.com)


**GÜNEY AZƏRBAYCAN QURTULUŞ PARTİYASININ 31-DEKABR**

**DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ İLƏ BAĞLI**

**BİLDİRİSİ**

31-dekabr parçalanmış və bölünmüş bir millətin birləşmə arzusunun dilə gətirildigi, parçalanmışlığa qarşı etiraz səsinin yüksəldiyi bir gündür. Bu gün, dünyanın harasında yaşadığından asılı olmayaraq Azərbaycan türklərinin birlik simvoludur və rəsmi olaraq dünyada yaşayan Azərbaycanlılar arasında qutlanmaqdadır. Bütövlük yolunda parçalanmışlıq psixologiyasının atılması üçün bu günün daha mühüm hala gəlməsini umud edirik.

Ama birliyə dogru hansı addımların atılıb atılmadığı, 200 ilə yaxındır ki insanların içinə nüfuz etmiş bu bölünmüşlük psixologiyasının azalması və qaldırılması üçün nələrin görüldüyü ciddi bir şəkildə sorğulanmalıdır. Bu millətin bağımsız olan qisminin 20 fayızı 20 ilə yaxındır ki itirilmiş və hələdə ki hələdir bu topraqların ana vətənə qayıtmasında ciddi işlər görülməmişdir. Vətənimizin Güney hissəsi isə Farsların işğalı altındadır və ən acı olanı da bu ki, bu işğal sonucu Güneydəki millətimizin Türklük ruhu yox edilməyə məruz qalmışdır. Hələ də bir Güney Azərbaycanlı Quzey Azərbaycanda bir İranlı kimi tanınmaqda və Azərbaycan rəsmilərinin diplomatik məhdudiyətlər və sınırlamalardan ötürü Güneylilərə heç bir yardımı toxuna bilməməkdədir. Bu yolda hər hansı ciddi bir proje və gələcəyə yönəlik planlama icra olmamışdır. Quzey Azərbaycanda var olan sivil toplum

quruluşlarının bu birlik ruhunu yaratmaqda hardasa heç bir iş görməmələri, 31-Dekabr bayramını sadəcə sloqanda qalmış bir bayram olaraq göstərməkdədir. Hətta zehnlərdə, bu bölünmüşlük bizim qədərimiz kimi alqılnmaqdadır.

Quzey Azərbaycan Hakimiyyətinin diplomatik və uluslararası sınırlamalarını diqqətə alaraq bu yolda Quzey Azərbaycan sivil toplum qurumlarına çox böyük vəzifələr düşməkdədir. Umud edirik ki, Quzey Azərbaycanda yaşayan soydaşlarımız bu qonuda daha çox və daha geniş çalışmalara imza atabilsinler.

Bizə belə gəlməktədir ki, Azərbaycan Türk Millətinin birləşməsi üçün sloqanlardan uzaq gərçəkçi və uygulanabilir projələrin ortaya qoyulub icra edilməsinin artıq zamanı gəlmişdir. Azərbaycan Türk Milləti əgər dünya millətələri arasında özünə sayğın bir yer əldə etmək istəyirsə bu birlik yolunda daha ciddi və yorulmadan çalışmalıdır.

**31-Dekabrı Bütöv Azərbaycan bayrağı altında qutlamaq umuduyla.**

**Güney Azərbaycan Qurtuluş Partiyasi**

**Yönətim Qurulu**

**2009-12-28**